# QARABAĞDA EKOTURİZMİN İNKİŞAF ETDİRİLMƏSİ ÜÇÜN İMKANLAR VƏ MÖVCUD VƏZİYƏTİN TƏHLİLİ

**Könül Abbasova**

*Bakı Dövlət Universitetinin Qazax filialı, abbas.k@bk.ru*

Şuşa turizmin güclü inkişaf potensialı ilə seçilir. Bu şəhərdə Pənahəli xanın sarayı, Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidləri, Xurşidbanu Natəvanın evi, Şuşa mağara düşərgəsi, Molla Pənah Vaqifin məqbərəsi, Şuşa qalası kimi tarixi abidələr və muzeylər ziyan görsə də, sürətlə bərpa işləri aparılır. Şuşa tarixi, dini, sağlamlıq və mədəni turizm üçün böyük imkanlara malik ərazilərdən biridir. Cıdır düzü, Turşsu yaylaqları, İsa bulağı, Səkili bulağı, Şəmilin bulağı və s. turizm üçün geniş perspektivləri ilə seçilir. Turşsu şəfalı və müalicəvi suyunun sağlamlıq turizminin inkişafına şərait yaradacağı şübhəsizdir. Şuşa həm də Qarabağın xalçaçılıq sənətinin mərkəzlərindən biri olaraq inkişaf imkanlarına malikdir [2, 5].

Kəlbəcər rayonu əsasən dağlıq ərazidə yerləşir, ən yüksək zirvələri Camışdağ (3724 metr) və Dəlidağdır (3616 metr). Burada flora aləmindən enliyarpaq meşələr (palıd, vələs, fıstıq ağacları), meşə-çöl bitkiləri, qismən orta və yüksək dağlıqda isə alp və subalp çəmənlikləri, fauna aləmindən isə qonur ayı, dağ keçisi, cüyür, ular, çöl donuzu, daşlıq dələsi, qartal, toğlugötürən və s. kimi heyvan növləri geniş yayılmışdır. Eyni zamanda Kəlbəcər ibtidai insanın yaşadığı məkanlardan biridir. Belə ki, buradakı çoxsaylı mağaralar, qazıntılar zamanı tapılmış müxtəlif ov və məişət alətləri, qayaüstü rəsmlər və s. bunun sübutdur və bunların tarixi təxminən eramızdan əvvəl IV-III minilliklərə aiddir. Kəlbəcər qədim türk mədəniyyətinin beşiyi hesab edilir. Qədim Tünc dövrünə aid olan Kür-Araz mədəniyyətinin nümunələri də bu rayonda aşkar edilmişdir. Kəlbəcər termal su mənbələrinin zənginliyi ilə də seçilir.

Kəlbəcərlə şimaldan həmsərhəd olan Laçın rayonunun ərazisində isə təxminən 3 mindən çox tarixi-memarlıq abidəsi mövcuddur. Bunların sırasında qəbirüstü abidələr, kurqanlar, qala tipli abidələr, süjetli daşlar, at, qoç fiqurlarını və s. sadalamaq olar. Rayonda subalp və alp çəmənlikləri, meşələrlə zəngin ekosistemlər vardır. Laçında (eləcə də Kəlbəcərdə) zəngin və qədim xalçaçılıq ənənələri vardır. Laçına aid olan dünya şöhrətli Qasımuşağı xalçaçılıq məktəbinin adını qeyd etmək olar. Laçında zəngin su mənbələri, mineral və termal bulaqlar vardır. Hər iki rayonun ərazisində Alban mədəniyyətinə aid olan abidələr mövcud olumuşdur.

Zəngilan rayonunda da çoxlu sayda termal su mənbələri mövcuddur. Burada tarixi və dini abidələr, xüsusilə seçilən çinar meşələri vardır.

Bunlar göstərir ki, Qarabağı dünyada mühüm ekoloji turizm mərkəzlərindən birinə çevirmək mümkündür. Azıx mağarası, Xudafərin körpüsü gələcəkdə aktiv turist marşrutları ola bilər. Gələcəkdə Bərdə-Ağdam, Füzuli-Xocavənd-Şuşa-Laçın, Zəngilan-Qubadlı-Kəlbəcər-Laçın, Füzuli-Cəbrayıl-Zəngilan istiqamətlərində turizm marşrutlarının təşkili nəzərdə tutulmuşdur.

Ayrı-ayrılıqda regionların turizm potensialında Şuşa yüksək qiymətləndirilir. Belə ki, burada mədəni tədbirlər, festivallar, sərgilər, müxtəlif turizm məhsullarının təqdimatı keçirilə bilər. Laçın-Kəlbəcər istiqamətində qış, təbiət və sağlamlıq, Qubadlı-Zəngilanda təbiət və mədəniyyət, Füzuli-Ağdam-Cəbrayılda isə mədəniyyət və tarixi turların təşkili məqsədəuyğun hesab edilir. Çünki turizmin nəinki iqtisadi, eləcə də siyasi-təbliğati tərəfi də var.

Qeyd edək ki, hələ sovet dövründə də əhəmiyyətli marşrutlar içərisində Qarabağ turizm marşrutu çox məşhur idi. Şuşa tarixi, mədəni və sağlamlıq turizm mərkəzi kimi tanınırdı. Şuşa şəhərində turizm fəaliyyətinin rəsmi təşəkkülü 1935-1936-cı illərə təsadüf etmişdir. 1936-cı ildə Şuşada ilk istirahət evi istifadəyə verilmişdir. Oradakı pansionat isə 1964-cü ildən fəaliyyət göstərməyə başlayaraq 1970-ci ildən sanatoriyaya çevrilmişdir. Sanatoriya əsasən mədə-bağırsaq xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşmişdır. 1970-ci ildən keçmiş SSRİ-də məşhur olan Şuşa Turşsu turist

bazası fəaliyyətə başlamış və tez bir zamanda SSRİ məkanında məşhurlaşmışdır. Xankəndi Səyahətlər və Ekskursiyalar Bürosu (SEB) 1971-ci ildə fəaliyyətə başlamış və Şuşa "Şəfa" Turist Bazası 1972-ci ildə istifadəyə verilmiş bu obyektlər sırasında yer alır. Qarabağda turizm təyinatlı obyektlərin tikintisini bütövlükdə bölgənin turizm potensialından istifadə olunması sonralar daha məqsədəuyğun davam etdirilmişdir [2,4].

Bədxah ermənilərin Azərbaycana qarşı işğalçılıq siyasəti və mənfur niyyəti nəticəsində bütün bu imkanlar məhv edildi. Şuşa başda olmaqla, Dağlıq Qarabağ və ətraf rayonlar 30 ilə yaxın işğal dövründə talan edildi. Tarixi, mədəni abidələr, həmçinin təbii resurslar tamamilə dağıdıldı. İşğaldan azad olunmuş şəhər, rayon və kəndlərimizdə çox sürətlə tikinti-bərpa işləri aparılır. Bu ərazilərin tez bir zamanda dünyanın diqqətində olacaq ekoturizm mərkəzlərinə çevriləcəyi şübhəsizidir.

**Ədəbiyyat**


1. Fətullayev Ş. Şuşa abidələri. Bakı: Gənclik. 1970.- 54 səh.
2. Məhərrəmova S. XIX-XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq bölgəsinin maddi mədəniyyəti və təsərrüfatı. AMEA Arxeologiya və Etnoqrafiya İn-tu -Bakı: Elm 2007. 208 səh.
3. Məhişoğlu B. Doğma adım Qarabağım - Bakı: "Araz", 2002.- 148 s.
4. Xəlilov C. Maddi mədəniyyət abidələrinin əhəmiyyəti və qorunması AzSSR EA Tarix İn-tu. Bakı: Azərnəşr, 1961.- 56 s.
5. Qarabaği M.C. Qarabağ tarixi. Az SSR inzibati-ərazi bölgüsü: AzSSR EA, Tarix İn-tu. Bakı: Az.SSR EA, 1959.- 205 s.